# DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİ AZƏRBAYCAN




**25-27 sentyabr 2015** - Birləşmiş Millətlər Təşkilatının Nyu-Yorkdakı mənzil-qərargahında **17 Dayanıqlı İnkişaf Məqsədi (DIM)** və **169 hədəfi** özündə birləşdirən yeni qlobal Dayanıqlı İnkişaf Məqsədlərinə dair qərar qəbul edilib.

2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik DİM-lər üzrə nəticələr çərçivəsində təsbit olunmuş **3 əsas prinsipi** bəyan edir: ***Universallıq: İnteqrasiyalı yanaşma: Heç kimin kənarda qalmaması.***

**6 oktyabr 2016-ci il** - Azərbaycan Respublikasının Prezidentinin 1066 nömrəli Fərman ilə **Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası** yaradılıb.

**Şuranın mandatı:** Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının əsas məqsədi 2030-cu ilədək Azərbaycan üçün əhəmiyyət kəsb edən, qlobal məqsəd və hədəflərə uyğun milli prioritetləri və onlara dair göstəriciləri müəyyən etməkdən, ölkədə sosial-iqtisadi sahələri əhatə edən dövlət proqramlarının və strategiyaların Dayanıqlı İnkişaf Məqsədləri ilə uzlaşdırılmasını təmin etməkdən, habelə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması ilə əlaqədar illik hesabat hazırlamaqdan ibarətdir.

Fərmanın icrasının təmin edilməsi məqsədilə **Şuranın Katibliyinin** yaradılması və Katibliyin funksiyasının həyata keçirilməsinin **İqtisadiyyat Nazirliyinə** həvalə edilməsi tapşırılıb və bu məqsədlə Nazirlikdə Milli Əlaqələndirmə Şurasının fəaliyyətinin təşkili üçün **Katiblik** yaradılıb.

Şuranın fəaliyyətinin səmərəli təşkili məqsədilə dövlət orqanlarının səlahiyyətli nümayəndələrindən ibarət **4 istiqamətdə İşçi Qrupları** yaradılıb.

- İqtisadi inkişaf və layiqli məşğulluq
- Sosial məsələlər üzrə
- Ekoloji məsələlər üzrə
- Monitorinq və qiymətləndirmə

**Heç kim kənarda qalmasın!**

DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİ




## 10-19 İYUL 2017-Cİ İL KÖNÜLLÜ MİLLİ HESABAT

Nyu-Yorkda keçirilmiş **Yüksək Səviyyəli Siyasi Forum** üçün Azərbaycanın ilk Könüllü Milli Hesabatı BMT-nin müəyyən etdiyi tematik plana uyğun olaraq **6 DİM (1, 2, 3, 5, 9 və 14-cü məqsədlər)** və hər il nəzərdən keçiriləcək **17-ci Məqsəd** üzrə BMT-nin İqtisadi və Sosial Şurasına (ECOSOC) təqdim olunub. (https://sustainabledevelopment.un.org)

Könüllü Milli Hesabatda hər yerdə yoxsulluğun bütün formalarına son qoymaq, aclığa son qoymaq, ərzaq təhlükəsizliyinə və daha yaxşı qidalanmaya nail olmaq və dayanıqlı kənd təsərrüfatını təşviq etmək, bütün yaşlarda hamı üçün sağlam yaşayışı təmin etmək və sağlamlığı təşviq etmək, gender bərabərliyinə nail olmaq və bütün qadınların və qızların səlahiyyətlərini genişləndirmək, möhkəm infrastruktur qurmaq, inklüziv və dayanıqlı sənayeləşdirməni təşviq etmək və innovasiyalara həvəsləndirmək, dayanıqlı inkişaf üçün okeanları, dənizləri və dəniz resurslarını qorumaq və onlardan dayanıqlı şəkildə istifadə etmək məsələləri öz əksini tapıb.

### ƏLAQƏ ÜÇÜN:

**Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının katibliyi**

Tel: (012) 310 28 00 (dax.2368)

Email: narmin.babayeva@economy.gov.az

Bakı, Ü. Hacıbəyov küç. 84 (Hökumət evi)

**BMT-nin Azərbaycandakı nümayəndəliyi**

Tel: (012) 498 98 88

Email: office@unazerbaijan.org

Bakı, BMT-nin 50 illiyi küç. 3

**Heç kim kənarda qalmasın!**

DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİ